**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.2.49**

**SARA HACIYEVA**

# XIII-XV ƏSRLƏRDƏ NAXÇIVANDA MƏDƏNİYYƏTİN İNKİŞAFI

*Məqalədə XIII-XV əsrlər dövrü Naxçıvanda mədəniyyətin inkişafından bəhs edilmişdir. Qeyd edilmişdir ki, hər bir millətin kimliyini tarixdə yaşadan ən önəmli mənbə maddi və mənəvi mədəniyyətidir. Bu baxımdan bəhs edilən dövrdə Naxçıvan diyarında elmin, şəhərsalmanın, memarlığın, sənətkarlığın, o cümlədən dini dəyərlərin mədəniyyətin inkişafına təsiri araşdırılmışdır. Araşdırmalardan məlum olmuşdur ki, XIII-XV əsrlər Azərbaycanın ayrılmaz bölgəsi olan Naxçıvan üçün yüksək inkişaf dövrü olmuşdur. Böyük ticarət yollarının kəsişməsində yerləşən Naxçıvan bu dövrdə mühüm mədəni, iqtisadi və siyasi dəyişikliklərin şahidi olmuşdur. XIII əsrdəki monqol istilaları dağıntılar gətirdi, eyni zamanda Şərq və Qərb arasında mədəni mübadilələri asanlaşdırdı. Sonralar Elxanilər, Cəlairilər və Teymurilər dövründə Naxçıvanda memarlıq, təhsil və bədii ifadədə bir canlanma yaşadı. Siyasi təlatümlərə baxmayaraq, bölgə alimlər, şairlər və sənətkarlar üçün əhəmiyyətli bir mərkəz olaraq qaldı. Yerli hakim Elita müxtəlif bilik sahələrinə himayədarlıq edir, ədəbiyyatın, xəttatlığın və dini elmin çiçəklənməsini təşviq edirdi. Bəhs edilən dövrdə türk və islam adət-ənənələrinin təsiri Naxçıvanın özünəməxsus mədəni kimliyini formalaşdırmış, onun inkişafına davamlı təsir göstərmişdir.*

**Açar sözlər:** *XIII-XV əsrlər, elm, təhsil, sənətkarlıq, memarlıq, mədəniyyət.*

**Giriş:** XIII-XV əsrlər dövrü Naxçıvanın mədəni nailiyyətləri Azərbaycan mədəniyyətinin formalaşmasında zəngin bədii, memarlıq və intellektual ənənələr yetişdirə bilmişdi. O dövr mədəniyyət nümunələrində görünən yazılar, mürəkkəb həndəsi naxışlar sonrakı dövrdə də Azərbaycan memarlığına və sənətkarlığında davam etmişdir. Eynilə, bu dövrün şifahi nağıl ənənələri, xalq musiqisi, poetik ifadələri Azərbaycan ədəbiyyatına və ifaçılıq sənətinə təsir etmişdir. Orta əsrlər dövründə inkişaf edən ənənəvi xalçaçılıq ölkənin mədəni və iqtisadi mənzərəsinin mühüm hissəsini təşkil etmişdi. Orta əsr səyyahlarının verdiyi məlumatlara görə, Naxçıvan ərazisindən keçən ticarət yolları yalnız tranzit yüklər üçün deyil, həm də bölgədə istehsal edilən kənd təsərrüfatı və sənətkarlıq məhsullarının daşınmasında önəmli rol oynayırdı. Bunun üçün çaylar üzərində körpülər salınır daxili və xarici ticarətin genişlənməsi üçün şərait yaradılırdı. Naxçıvana səyahət etmiş səyyahların yazılarından məlum olur ki, hələ XIII-XV əsrlər dövründə Naxçıvanda yerli əhali həm daxili, həm də xarici bazarlar üçün külli miqdarda yüksək keyfiyyətli ipək və kətandan müxtəlif parçalar, xalça, palaz, kilim, metalişləmə sənətinə aid nümunələr hazırlamışlar. Xüsusilə, Naxçıvan şəhərində və Ordubadda ipək parçalar istehsalı geniş yayılmışdır. Mahir ustalar yüksək keyfiyyətli və gözəl parçalar toxuyurdular. Artıq XIV əsrdə Azərbaycan xalçaları kütləvi şəkildə Avropaya gedib çıxmağa başlamışdı. Bu dövrdə müxtəlif xalqlar təkcə milli coğrafiyada deyil, həm də ucu bucağı görünməyən müsəlman dünyası adı altında birləşmişlər.

**Elm, təhsil və ədəbiyyat**. Bəhs olunan dövrdə Naxçıvanın daxil olduğu Hülakilər dövlətində təhsilə, elmə diqqət verilməsi, xüsusilə dövlətin baş veziri Şəmsəddin Cüveyninin həyata keçirdiyi tədbirlərin elmin inkişafı üçün münbit şərait yaratması idi. Azərbaycan Atabəylərinin hakimiyyəti dönəmində Naxçıvanın paytaxt olması (1146-1161) isə burada inkişafla yanaşı və bir çox yeniliyin yaranmasına vəsilə olmuşdur. Ən müxtəlif tarixi dövrlərdə Naxçıvanda yaşayıb-yaratmış Əcəmi Əbubəkr oğlu Naxçıvani, Qətran Təbrizi, Əsədi Tusi, Kəmaləddin Naxçıvani, Əbubəkr ibn Xosrov, Əmirəddin Məsud, Cəmaləddin Naxçıvani, Aşıq Alı, Ağ Aşıq, Heyran xanım, Qönçəbəyim və Naxçıvandan çıxmış Həddad ən-Nəşəvi, Əhməd ibn Hacat Əbubəkr ən Nəşəvi, Əbu Abdullah Nəşəvi, Həsən ibn Ömər Naxçıvani, Nəsirəddin Tusi, Nəcməddin Naxçıvani, Məhəmməd Hinduşah Naxçıvani, Baba Nemətullah Naxçıvani kimi görkəmli simalar Naxçıvanda ədəbiyyatın, elmin və müxtəlif sahələrin inkişafına mühüm təsir göstərib [9, s. 24-25]. Bu dövrdə əslən Naxçıvandan olan Xacə Məhəmməd Nəsirəddin Tusinin fəaliyyəti xüsusi diqqəti cəlb edir. Onun Avropa elminin inki-

şafına, Qərb ölkələrinin rəsədxanalarının elmi fəaliyyətinə böyük təsiri olmuşdur. Alimin bir çox əsərləri bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Xüsusən "Əxlaqi Nasiri" əsərindən uzun dövr mədrəsələrdə dərslik kimi istifadə edilmişdir. Həmçinin, o dövrdə yaşamış Nəcməddin Naxçıvani, Baba Nemətullah Naxçıvani və b. filosof-alimlər XIII-XV əsrlərin tanınmış görkəmli ziyalıları idi [10, s. 267-269].

Bu dövrdə Naxçıvanda qədim türk mədəni irsi ilə yanaşı, İslam dininin də bütün prinsipləri incəsənətə, memarlığa, ədəbiyyata dərindən təsir etmişdi. Dini poeziya, maraqlı əlyazmalar və məscidlərin inşası və onlar üzərində islami dəyərlərin həkk etdirilməsi, təsvirli motivlər, dövrün mənəvi mövzularını özündə əks etdirirdi. Rəssamlar məcazi təsvirlərdən daha çox həndəsi naxışlara, arabesklərə və xəttatlığa üstünlük verərək antik ənənələrə sadiq qalırdılar. Bu üslubi üstünlük həm memarlıq ornamentində, həm də dekorativ sənətdə özünü büruzə verir və gündəlik həyatda İslam mədəniyyətini gücləndirirdi. Həmin dövrdə məscidlərin, mədrəsələrin, məqbərələrin tikintisi dini və mədəni ənənələrin qorunub saxlanmasında mühüm rol oynamışdır. Bu tikililər təkcə ibadət yerləri deyil, həm də alimlərin dini bilgilər və fəlsəfi mübahisələr apardıqları intellektual danışıq mərkəzləri idi. Mədrəsələrdən dini biliklərin ötürülməsi və elmi araşdırmalar üçün əsas qurum kimi istifadə edilirdi. Mədrəsələrdə İslam fiqh, riyaziyyat, astronomiya və tibb sahəsində təhsil verilir, İslam dünyasının intellektual mənzərəsinə töhfə verən alimlər yetişirdi. Təsadüfi deyildir ki, yuxarıda adları qeyd edilən və dünya mədəniyyətinə töhfələr verən alimlər məhz elə həmin mədrəsələrdə təhsil almış və yetişmişdi. Yerli hökmdarların himayəsi bu cür təhsil qurumlarının çiçəklənməsini təmin edərək, mədrəsələrə bölgənin hər yerindən tələbələri və alimləri cəlb edirdi. Bundan əlavə, dini liderlər idarəçilikdə mühüm rol oynayır, hökmdarlara hüquqi və etik məsələlərdə məsləhət verirdilər. Şəriət qanunlarının tətbiqi ictimai və iqtisadi məsələlərin tənzimlənməsinə, icma daxilində sabitliyin təmin olunmasına kömək edirdi.

Hələ XII yüzillikdə Eldənizlər dövlətinin çiçəkləndiyi dövrdə Naxçıvan şəhərindəki Atabəylər memarlıq kompleksində mədrəsə də var idi. Mənbələrin verdiyi məlumatlara görə bu dövrdə Azərbaycan ərazisində iri və məşhur mədrəsələr əsasən Marağa, Gəncə və Naxçıvan şəhərlərində mərkəzləşmişdir. Onların içərisində Naxçıvan mədrəsələri, xüsusilə Atabəy Şəmsəddin mədrəsəsi daha çox tanınmışdır. Orta əsr qaynaqları təsdiq edir ki, XII-XIII əsrlərdən sonrakı dövrlərdə də Naxçıvan şəhərində çoxlu məşhur mədrəsələr fəaliyyət göstərmişdir. Bütün Azərbaycanda olduğu kimi Naxçıvanda da mədrəsələr sovet hakimiyyətinin qurulmasınadək mövcud olmuşdur. Dövrümüzədək Naxçıvan mədrəsələri, mədrəsələrdə müəllim-tələbə münasibətləri, orada tədris olunan fənlər və s. haqqında dəyərli məlumat verən qiymətli bir sənəd gəlib çatmışdır. "Mənşur-i təqrir-i tədris-i mədrəsə-i Naxçıvan" (Naxçıvan mədrəsəsi tədrisinin təsdiqinə dair fərman) adlanan bu sənəd Elxani hakimləri tərəfindən imzalanmış fərmandır. Müəllifi Elxanilər sarayında baş vəzir işləmiş Şəmsəddin Məhəmməd Cüveyni olan bu fərman Azərbaycan Atabəyləri zamanında Naxçıvan şəhərində inşa edilmiş iki mədrəsə haqqındadır. Bu mədrəsələrin Atabəylər memarlıq kompleksində "Darülmülk" (Hökumət evi), Came məscidi, Möminə xatın türbəsi və digər tikililərlə yanaşı olaraq Eldənizlər dövlətinin bir müddət paytaxtı olmuş Naxçıvan şəhərinin mərkəzi hissəsində yerləşməsi onların paytaxtın, geniş mənada isə böyük bir dövlətin maarif-təhsil və ideoloji həyatında əhəmiyyətli yer tutmasından xəbər verir [16].

Muxtar respublika ərazisində XV əsrdə Gənzə kəndində Hacı Hüseynqulu məscidi (XV əsr), Babək rayonunun Cəhri kəndində Heydərxanlı məscidi (XV əsr) və s. kimi məscidlər də inşa edilmişdi. Elxani hökmdarı Qazan xan 1303-cü ildə həyata keçirdiyi islahatlardan və İslam dinini qəbul etdikdən sonra, hətta dövlətin xəzinəsi də Camelərdə yerləşdirilmişdir. Din xadimləri əsasən hökmdarların və dövlətin mənafeyini müdafiə etdiklərindən, müsəlman ruhaniləri dövlətdə mühüm mövqedə dururdular [16]. Mədrəsələr (İslam məktəbləri) əsas ali təhsil müəssisələri idi, burada alimlər ilahiyyat, fəlsəfə, astronomiya və tibb də daxil olmaqla geniş miqyaslı fənləri öyrənirdilər. Elmi dairələrdə ərəb və fars dilləri üstünlük təşkil etsə də, şeirdə və xalq ədəbiyyatında türk ləhcə-

ləri də ön plana çıxdı. Zəngin ədəbi ənənələrə malik olan Naxçıvanda həmin dövr ədəbiyyat yeni istiqamətdə inkişaf etməyə başlayır. Bu dövr üçün başlıca ədəbi-fəlsəfi istiqamət istilalara qarşı mübarizə və insan azadlıqlarını önə çəkən fəlsəfi təriqətlərin inkişaf tapması idi. Bu dövrün görkəmli filosof alimləri Fəzlullah Nəimi, Bayrək Quşçuoğlu və s. kimi tanınmış yazarlar də məhz elə istilalara, ədalətsizliyə qarşı mübarizə ruhunda əsərlər yazırdılar [9, s. 270]. O, dövrdə yaşayan görkəmli naxçıvanlı şairlər və tarixçilər öz dövrlərinin siyasi və ictimai fəaliyyətləri ilə sonrakı nəsillərə təsir edən ədəbi irs yaradıblar.

**Memarlıq və şəhərsalma**. XIII-XV əsrlər dövrü Naxçıvan ərazisində məscid və mədrəsələrlə yanaşı türbələr də inşa edilmişdir. Tədqiqatçıların fikrincə, qəbirlər üzərində inşa edilən türbələr qədim türklərin köçəri mədəniyyətinə aid olunan çadıra bənzədilmişdir. Bu isə qədim türklərin həyat tərzi ilə əlaqəli olan "çadırın" memarlıq sənətində əks olunması kimi dəyərləndirilir. İkinci qrup alimlərin fikrinə görə isə, qədim türklərin qəbirlər üzərində inşa etdikləri türbələrin tikilməsi adəti qədim türklərin "Göytanrı" inamı ilə əlaqəlidir. Maraqlıdır ki, türbələrin göy üzünü xatırladan hissəsinə də (qurşaq hissəsi) mavi rəng verilmişdir. Bu isə elmi baxışlara görə, islam dinindən əvvəl əski türklərin ən qədim dini inamı olan Göytanrı inamının memarlıqda əks olunması idi [15]. Bu abidələrin soykökü haqqında elmi baxışların geniş yayılması və daha inandırıcı dəlillərlə əsaslandırılması göstərir ki, bu cür abidələr türk mənşəli sənət əsərləridir. Mənbələrin verdiyi məlumata görə, türklərdə türbə ilk dəfə Göytürklərdə və Uyğurlarda inşa edilmişdir. Daha sonra isə Orta Asiya türkləri və bilavasitə Samanilər türbə inşasını davam etdirərək başqa dövlətlərə də yaymışlar. Səlcuqlar zamanı isə insanın xatirəsini əbədiləşdirmək üçün türbə inşası daha böyük önəm almışdı [14, s. 15].

Türbə inşası təkcə türk xalqlarında deyil, həmçinin digər xalqlarda da mövcud olmuşdur. Tarixi mənbələr göstərir ki, islam şəriətin qanunları məzarlar üzərində tikdirilən türbələri o qədər də xoş qəbul etmədiyi halda müsəlmanların yaşadıqları ərazilərdə seçkin adamların qəbirləri üzərində türbələr inşa edilmiş və bunların da bir çoxu günümüzədək gəlib çatmışdır. İslam memarlığında ilk türbə Abbasilər zamanında 862-cı ildə Samarrada inşa edilmiş olan Kübbetüs Süleybiyyədir. Digər qədim türbə isə Samanoğulları dövründə X əsrin başlanğıcında Buxarada qurulmuş İsmail Samani türbəsi ilə Fatimilər dövründə Qahirədə 1016-cı ildə inşa edildiyi sayılan Səba Benat (Yeddi Qızlar) adı ilə tanınan türbələrdir. Lakin qaynaqların verdiyi məlumatlardan aydın olur ki, türbə islam coğrafiyasında daha çox türklər və iranlıların yaşadıqları ərazilərdə yayılmışdır [3, s. 74]. Qeyd etmək lazımdır ki, türbələr qədim türk mədəniyyəti ilə əlaqələndirilməsinə baxmayaraq, bu abidələr üzərində İslam dini dəyərləri ilə eyniyyət təşkil edən simvollar da vardır. Məsələn, türbələr üzərindəki çadır forması insanların bir çatı altında cəmlənməsini simvolizə etdiyi kimi, məscidlər üzərindəki günbəz formalı tikililər insanların cəm olduğu yer mənasını verir. Yəni hər iki anlamda istər çadır, istərsə də günbəz insanların bir yerdə cəm olması anlamını ifadə edir.

Əcəmi Naxçıvani yaradıcılığının təsiri XIII-XV əsrlərdə inşa edilmiş memarlıq əsərlərində davam etdirilirdi. Əhməd Əyyub əl-Hafiz oğlu Naxçıvaninin memarlığı ilə inşa edilən XIV əsr abidəsi Qarabağlar və 1322-ci ildə tikdirilmiş Bərdə türbəsi də Əcəmi yaradıcılığının davamı olan sənət əsərləridir. Qeyd etmək lazımdır ki, o dövrün memarı Camaləddin Naxçıvaninin tikdirdiyi *Xanəgah* türbəsi də bəhs olunan dövrün əsəridir. C.Qiyasi XII-XIII əsrin abidəsi hesab edilən Gülüstan türbəsini səciyyələndirərək yazır; "Gülüstan türbəsi Mərkəzi Azərbaycan və Anadolu Səlcuq türbələrinin soy birliyinin baş göstəricisidir" [8, s. 80]. Naxçıvan memarlıq məktəbinin təsiri altında Yaxın və Orta Şərqin bir sıra yerlərində: Marağada, Urmiyada, Konyada (Kiçik Asiyada), Culfa yaxınlığında türbələr, məscidlər, Araz çayı üzərində Xudafərin körpüsü və müxtəlif tipli abidələr inşa edilmişdir. Təsadüfi deyildir ki, Məşhur avstriya sənətşünası Ernst Dits, O. Aslanapa ilə birgə yazdığı "Türk incəsənətinin tarixi" əsərində yüzlərlə memarlıq əsəri ilə şöhrət qazanmış Türkiyə memarı Sinanın yaradıcılığından bəhs edərək yazır ki, onun İstanbulda tikdiyi "Xosrov paşa" türbəsi və bəzi türbələr şübhəsiz Naxçıvan türbələrinin təsiri altında inşa edilmişdir [11, s. 8].

Naxçıvanın XIII-XIV əsrlər tarixinə dair ilk mənbələrdə olduqca qiymətli məlumatlar vardır. Bu dövrə dair çox qiymətli arxeoloji qazıntı materialları da aşkar olunmuşdur. *Əlincə* (Culfa rayonu) və *Babi* (Şahbuz rayonu) *zərbxanaları, Naxçıvan Cümə məscidi, Xarabagilan, Vənənd məscidi, Nüsnüs piri, Biləv nekropolu, Dər türbəsi, Düylün piri (Ordubad rayonu), Ziyaülmülk körpüsü, Gülüstan türbəsi (Culfa rayonu), Köhnəqala (Şahbuz rayonu), Dədəli körpüsü (Şərur rayonu), Qarabağlar türbəsi (Kəngərli rayonu), Ağoğlan türbəsi (Sədərək rayonu) və b.* abidələr bu dövrün zəngin tarixindən xəbər verir [16].

Qədim türk inanclar sistemi ilə islam dini dünyagörüşünün sintezi XI-XIII əsrlərdə böyük müsəlman intibahını yaratdı. Müsəlman intibahı bəşəriyyətə qüdrətli elm, sənət, fikir bahadırları bəxş etdi. Bu mənada türk dünyası coğrafiya baxımından ümumdünya coğrafiyasının tərkib hissəsi olduğu kimi, ucu bucağı görünməyən geniş ərazilərdəki qohum xalqların mədəniyyətləri də böyük bir toplumun zəngin mənəvi mirası olmaqdan başqa, həm də bəşər sivilizasiyasının ayrılmaz bir hissəsi oldu [6]. Təsadüfi deyildir ki, tədqiqatçılar tərəfindən XIII-XV əsrlər dövrü ədəbiyyat və intellektual axtarışlar üçün qızıl dövr hesab edilir. Bu da onu göstərir ki, Monqolların ilk hücumları elmi fəaliyyətə mane olmasına baxmayaraq, bölgə sonrakı dövrdə mədəni inkişaf bərpa olundu, təhsil və təlim mərkəzləri mədəni inkişafda mühüm rol oynadı. Yuxarıda qeyd edildiyi kimi, orta əsrlər dövrü burada özünəməxsusluğu ilə seçilən memarlıq məktəbi təşəkkül tapmış və Azərbaycanla yanaşı, həm də Yaxın Şərq memarlıq məktəbinin inkişafına yüksək təsir göstərmişdir. Ortaq mədəniyyətin formalaşdığı orta əsrlər dövründə Naxçıvan diyarı da türk-islam coğrafiyasının bir parçası olduğundan bu mədəniyyətə böyük töhfələr vermişdir.

**Şəhərsalma**. Memarlıq və sənətkarlığı ilə şöhrət qazanmış Naxçıvan diyarı həmin dövrdə şəhərsalma mədəniyyəti ilə də dövrün alim və səyyahlarının diqqətini çəkmişdir. Zəngin sənət əsərləri ilə tanınan Naxçıvan şəhəri haqda XIII əsrdə naməlum müəllif tərəfindən yazılan "Əcaib əd-Dünya" əsərində də maraqlı məlumatlar yazılıb: "*Naxçıvan Azərbaycanda yüksək bir yerdə salınmış və möhkəmləndirilmiş, əhalisi gur olan iri şəhərdir. Burada çoxlu saraylar, şəhərətrafı qalalar, malikanələr (köşk) və parad təyinatlı tikililər qurulmuşdur. Şəhərin yaxınlığında daşdan qalalar, qalanın içində isə mədrəsə və məscidlər tikilib. Qalanın içində həmçinin gözəl bir bulaq var. Deyilənə görə, dünyada bundan çox məskunlaşmış şəhər yoxdur. Bütün inşaat kirəcdən və bişmiş kərpicdən aparılırdı. Üç və dördmərtəbəli köşklərin əksər qismi əslində qalalardır. Şəhərin ətrafındakı kəndlər olduqca gözəldir, axar suları var. Çoxlu bağ-bağat Salınıb, göz oxşayan çəmənliklər var. Araz çayı şəhərin ərazisindən axır. Eldənizin mübarək zamanında Naxçıvan tamam əzəmətə çatdı. Orada darul-mülk (şah iqamətgahı) və dövlətxana tikdilər*". "Əcaib əd-Dünya" əsərinin müəllifi Naxçıvanın XII əsrdəki təsvirini verərkən onun yanında daşdan qala, qalanın içərisində isə mədrəsələr və məscidlər olduğunu qeyd etmişdir [8, s. 16].

XIV əsrin ikinci yarısı və XV əsrin əvvəllərində yaşamış orta əsrlər şərqinin görkəmli səyyahı, coğrafiyaşünası və astronomu Əbdurrəşid əl-Bakuvinin verdiyi məlumat da maraqlıdır. Görkəmli səyyah Naxçıvan haqqında yazırdı: *"Naxçıvan divarları və iç qalası olan Azərbaycanda gözəl şəhərdir. Bağlı-bostanlı, meşəli, meyvəli və çörəkli yerdir. Havası təmiz, suyu şirindir"* [2, s. 132]. Göründüyü kimi, Azərbaycanın inkişaf etmiş ticarət şəhərləri içərisində Naxçıvan, Ordubad, Culfa şəhərləri xüsusilə fərqlənmişlər [5, s. 154-160].

**Bədii ənənələr: miniatürlər, dulusçuluq və əl işləri.** Bəhs olunan dövrdə Naxçıvan diyarı təkcə memarlıq və şəhərsalma sahəsində deyil, digər sənət növlərinin meydana gəlməsi və inkişafında da aparıcı mövqeyə malik olmuşdur. Tarixi ədəbiyyatların verdiyi məlumatlara görə Azərbaycan, o cümlədən də Naxçıvan mallarının Avropaya çıxarılması XIV əsrdən daha geniş vüsət almışdır [5, s. 154-160]. Naxçıvanın görünüşü bölgənin zəngin mədəni qarşılıqlı əlaqəsini və köklü ənənələrini əks etdirirdi. Bu dövr miniatür rəssamlığının, dulusçuluğun, metal emalının və toxuculuq istehsalının çiçəklənməsi dövrü hesab edilməklə yanaşı, sənətkarlar fars, türk və islam incəsənətinin təsirlərini də öz əsərlərində ehtiva edirdilər. Bu isə təbii ki, bir çox mədəniyyətin sintezini ya-

radırdı. Sənətkarlıq tarixinə diqqət edildikdə qeyd edilir ki, Azərbaycan miniatür sənətinin əsas tarixi XVI əsrdən intişar tapmış Təbriz miniatür məktəbidir. Lakin inanmaq olmur ki, Nizami Gəncəvi və Xaqani Şirvani kimi dahi şairlər, misilsiz memar Əcəmi Naxçıvani öz şah əsərlərini yaratdığı mədəni yüksəliş dövründə miniatür rəssamlığı olmamışdır. XIII əsrin müəllifləri yazırlar ki. Naxçıvanın rənglənmiş ağac məmulatları çox gözəldirlər, belə ki, bu əşyalardan bütün dünyada hədiyyə kimi istifadə edirdilər. Naxçıvanlılar ağac məmulatlarını naqqaşlamaqda mahir ustadırlar [12, s. 11].

Bəhs olunan dövrdə Naxçıvanda hazırlanan toxuculuq məmulatlarından ipək, parça, nazik örtüklər və s. geniş yayılmışdır. XIII-XIV əsrlərdə Azərbaycan ərazisində mis məmulatının hazırlanması üçün zəruri olan xam metal əsasən Qafan və Naxçıvan bölgələrində hasil edilmişdi [1, s. 65]. Bölgənin digər bir şəhəri Əncan (və ya Əcnan) şəhəri olmuşdur. Bu şəhərin mis mədənləri olduğunu qeyd edən “Nüzhət əl-qülub” da şəhərin digər adı karxana kimi göstərilir [4, s. 51]. Ehtimal ki, burada hasil edilən misdən yerli sənətkarlar müxtəlif məmulatlar hazırlamaq üçün istifadə etmişlər. Bu dövrdə mis və mis məmulatının, əsasən məişət təyinatlı qab-qaçağın istehsalı geniş intişar tapmışdır. Təbriz, Gəncə, Xoy, Şəmkir şəhərləri ilə yanaşı Naxçıvan da monqol yürüşlərinə qədərki dövrdə metalişləmə sənətinin mərkəzlərindən biri olmuşdur [1, s. 58; 7, s. 49]. Bəhs olunan dövrün metal ustalarından biri Osman Salman oğlu Naxçıvani idi ki, naxçıvanlı bu sənətkarın bürüncdən hazırladığı dolça, haliyədə Parisin məşhur Luvr muzeyində saxlanılır [9, s. 280].

Sənətkarlar bölgənin mədəniyyətinin formalaşmasında, keramika, xalça, zərgərlik, ağac emalı istehsalında mühüm rol oynayırdılar. Orta əsrlər dövründə, xüsusən XIII-XIV əsrlərdə Azərbaycan ağac emalı sahəsində nəccarlıq (xarratlıq və dülgərlik) mühüm yer tuturdu. Ağacişləmə sənəti tarıxən təsərrüfat və məişətin müxtəlif sahələrində, eləcə də memarlıqda geniş tətbiq olunmuşdur. Bəhs olunan dövrdə dulusçuluq emalatxanaları xüsusilə məşhur idi, sənətkarlar bənzərsiz şüşələmə üsullarını və mürəkkəb dekorativ motivləri inkişaf etdirirdilər. Bu mallar həm yerli, həm də beynəlxalq bazarlarda çox tələb olunurdu və regionun qonşu mədəniyyətlərlə iqtisadi əlaqələrini gücləndirirdi. Təcrübəli sənətkarlar maraqlı qablar, çıraqlar və silahlar da daxil olmaqla, incə həkk olunmuş tunc və mis məmulatları istehsal edərək, metal emalını da əhəmiyyətli dərəcədə inkişaf etdirirdilər. Qeyd etmək lazımdır ki, sənətkar müəssisələri kortəbii şəkildə deyil, XI-XVI əsrlərdə şifahi şəkildə yayılan fütuvvatnamələr (sənətkarlar üçün davranış normasını və mənəvi-əxlaqi kamilliyə çatmaq yollarını müəyyənləşdirən meyar idi) əsasında idarə olunmuşlar. Sənətkar təşkilatları müxtəlif mənbələrdə sex, həmkar və əsnaf kimi təqdim edilir, bəzi mənbələrdə isə “muxtarifə”, “uzan” və “əsnaf” kimi adlarla adlandırılırdı [9, s. 184]. Bu dövrdə əsas kütləsi sənətkar və şəhər yoxsullarından ibarət olan “əxi”lər (qardaşlıq ittifaqları) ictimai həyatda daha fəal rol oynayırdılar [1, s. 125]. Əxilər emalatxana sahibləri və sələmçilərə qarşı mübarizə aparır, təşkilat üzvlərinə və başqa şəhərdə olan məsləkdaşlarına kömək etmək üçün vəsait toplayırdılar. Şəhər həyatındakı dəyişikliklər, sənət nümunələrinin inkişafı sənətkarların ictimai və siyasi rolunun nisbətən artmasına gətirib çıxardı.

**Nəticə.** XIII-XV əsrlər dövrü siyasi və hərbi qarışıqlıqlar dövrü olmaqla yanaşı, həm də memarlığın, ədəbiyyatın, dini fikrin və incəsənətin çiçəkləndiyi və tədqiqatçıların da qeyd etdiyi kimi, mədəni inkişafın qızıl dövrünə təsadüf edir. Bu dövrün irsi keçmişlə bu gün arasında körpü rolunu oynayaraq, müasir Azərbaycan mədəniyyətinə təsir etməkdə davam edir. Tarixi mühafizə, akademik tədqiqatlar və bədii dirçəliş sahəsində davamlı səylərlə Naxçıvanın zəngin orta əsr irsi gələcək nəsillər üçün milli qürur və ilham mənbəyi olaraq qalır.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi: 7 cilddə. III c., Bakı: Elm, 1999, 584 s.
2. Bakuvi Ə. Kitab təlxis əl-asar və əcaib əl-məlik əl-qəhhar (“Abidələrin” xülasəsi və qüdrətli hökmdarın möcüzələri). Bakı: Şur, 1992, 176 s.
3. Burhan O. Mezartaşında simgeleşen inamlar. İstanbul, 1983, 128 s.

4. Evliya Ç. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr) / Türk dilindən işləyəni və şərhlərin müəllifi tarix elmləri doktoru S.Onullahi. Bakı: Azərnəşr, 1997, 92 s.
5. Hacıyeva S. XVIII-XIX əsrlərdə Naxçıvanda xarici ticarət əlaqələrinin inkişafı, 2017 // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2017, № 1, s. 154-160.
6. Haqverdiyev H.T. Qədim türk dünyasının ortaq dəyərlərinin coğrafiyası. "Respublika" qəz., 2018, 9 oktyabr, № 225, s. 6.
7. Kəlbizadə E. Naxçıvanın tarixi coğrafiyası (XII-XVIII əsrin I yarısı). Naxçıvan: Əcəmi, 2016, 200 s.
8. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı: İşıq, 1991, 264 s.
9. Qasımov.R. Qədim və orta əsrlər dövründə Naxçıvanda ədəbiyyatın inkişaf istiqamətləri // 16-17 oktyabr 2015-ci il tarixdə keçirilmiş "Böyük İpək yolu və Naxçıvan" beynəlxalq konfransının materialları. Naxçıvan, 2015, s. 24-25.
10. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002, 272 s.
11. Naxçıvan tarixi: 3 cilddə. I c., Naxçıvan: Əcəmi, 2013, 452 s.
12. Salamzadə Ə. Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri. Bakı, 1976, 82 s.
13. Salamzadə Ə., Məmmədzadə K. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 1985, 268 s.
14. Parlaq T. Turan yolunda Aralın sırları. Ankara: Kariyer matbaaçılıq Limited şirketi, 2007, 526 s.
15. Ersoy N. Eski türk inancları ve şamanizm.
16. http://www.bilgicik.com/

***AMEA Naxçıvan Bölməsi,***
***Naxçıvan Müəllimlər İnstitutu***
***E-mail: hacyevasara@ yahoo.com***

**Sara Hajiyeva**

**DEVELOPMENT OF CULTURE IN NAKHCHIVAN IN THE XIII-XV CENTURIES**

The article deals with the development of culture in Nakhchivan in the XII-XV centuries. It was noted that the most important source that preserves the identity of each nation in history is its material and spiritual culture. From this point of view, the influence of science, urban planning, architecture, crafts, and religious values on the development of culture in the Nakhchivan region was investigated. Research has shown that the 13th-15th centuries were a period of high development for Nakhchivan, an integral region of Azer-baijan. Located at the crossroads of major trade routes, Nakhchivan witnessed significant cultural, economic, and political changes during this period. The Mongol invasions of the thirteenth century brought devastation but also facilitated cultural exchanges between East and West. Later, during the Elkhanids, Jalairids and Timurids, Nakhchivan experienced a revival with advances in architecture, education, and artistic expression. Despite political turmoil, the region remained an important center for scholars, poets, and artists. The local ruling elite patronized various fields of knowledge and promoted the flourishing of literature, calligraphy, and religious science. During the mentioned period, the influence of Turkic and Islamic traditions formed the unique cultural identity of Nakhchivan and had a lasting impact on its development.

**Keywords:** XII-XV *centuries, science, education, crafts, architecture, culture.*

**Сара Гаджиева**

## РАЗВИТИЕ КУЛЬТУРЫ В НАХЧЫВАНЕ В XIII-XV ВЕКАХ

В статье обсуждается развитие культуры в Нахчыване в XIII-XV веках. Отмечено, что важнейшим источником, сохраняющим в истории самобытность каждого народа, является его материальная и духовная культура. С этой точки зрения исследовано влияние науки, градостроительства, архитектуры, ремесла, в том числе религиозных ценностей, на развитие культуры в Нахчыванском регионе в указанный период. В результате исследования выяснилось, что XIII-XV века были периодом высокого развития Нахчывана, являющегося неотъемлемой частью Азербайджана. В этот период Нахчыван, расположенный на пересечении основных торговых путей, стал свидетелем важных культурных, экономических и политических изменений. Монгольские нашествия XIII века принесли разрушения, но также способствовали культурному обмену между Востоком и Западом. Позже, в период правления Ильханидов, Джалаиридов и Теймуридов, Нахчыван пережил возрождение благодаря достижениям в архитектуре, образовании и художественном самовыражении. Несмотря на политические потрясения, регион оставался важным центром для ученых, поэтов и художников. Местная правящая элита покровительствовала различным областям знаний, поощряла расцвет литературы, каллиграфии и религиозной науки. В указанный период влияние турецких и исламских традиций сформировало уникальную культурную самобытность Нахчывана и оказало длительное влияние на его развитие.

**Ключевые слова:** *XIII-XV века, наука, образование, ремесла, архитектура, культура.*

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 01.07.2025**
**Son variant 30.07.2025**